# AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

# BAKI DÖVLƏT UNİVERSİTETİ
# TARİX FAKÜLTƏSİ

# 5503.02 – "VƏTƏN TARİXİ" İXTİSASI ÜZRƏ FƏLSƏFƏ DOKTORU İMTAHAN PROQRAMI

*Fakültə Elmi Şurasının 30 dekabr 2019-cu il tarixli (4 saylı protokol) və Fakültə Tədris Metodik Şurasının 25 dekabr 2019-cu il tarixli (6 saylı protokol) iclaslarının qərarı ilə təsdiq olunmuşdur*

**BAKI – 2020**

**Tərtib edənlər:** Dosent Mehman Abdullayev
Dosent Azad Rzayev
Dosent Bəymirzə Şabiyev
Dosent Boran Əziz

**Elmi redaktoru:** Professor İbrahim Zeynalov

**Rəyçilər:** Dosent Kəmalə Nəcəfova
Dosent Arzu Məmmədova

# AZƏRBAYCAN TARİXİ
# İZAHAT VƏRƏQİ

Azərbaycan tarixinin əsas problemləri və bölmələri. Azərbaycan tarixinin başlıca problemləri üzrə vahid elmi konsepsiyanın yaradılmasının zəruriliyi. Azərbaycan tarixinin dövrləşdirilməsi. Tarixi qaynaqlar əsasında aparılan elmi araşdırmalar nəticəsində əldə edilmiş nəticələrin tədris prosesinə cəlb edilməsi. Tələbələrin bilik səviyyəsinin təkmilləşdirilməsi və dərinləşdirilməsi üçün problem xarakterli mühazirə və məşğələ mövzularının müəyyənləşdirilməsi. Ayrı-ayrı mövzular üzrə başlıca qaynaqların və tarixi ədəbiyyatların tövsiyə edilməsi.

## Mövzu 1. Tarix öncəsi Azərbaycanda ibtidai icma yaşayışı

Azərbaycan ərazisində ilk insan məskənləri. Ulu icma. İstehlak təsərrüfatı. Azərbaycan ərazisində ən qədim insan izləri. Quruçay mədəniyyəti.Azıx adamı. Qəbilə icmasının meydana gəlməsi. Orta daş dövrü (Mezolit.) Ox və kamanın kəşfi. Qobustan yaşayış məskəni və qayaüstü rəsmləri. İbtidai əkinçilik və heyvandarlıq vərdişləri. «Neolit inqilabı». İstehsal təsərrüfatının yaranması: Əkinçilik, maldarlıq, dulusçuluq və ev peşələri (toxuculuq, tikinti işi və s.). Azərbaycanda metal alətlərdən istifadə. Erkən Tunc dövrü. Kür-Araz mədəniyyəti.Xocalı-Gədəbəy və Yaloylu təpə mədəniyyətləri. Təsərrüfatın yeni sahələri. Orta tunc dövrü. Sənətkarlığın inkişafı. Son Tunc – Erkən Dəmir dövrü. İbtidai icma cəmiyyətinin dağılması.

Respublikamızda son arxeoloji qazıntıların ibtidai icma cəmiyyətinin öyrənilməsi üçün əhəmiyyəti.

## Mövzu 2. Azərbaycanda qədim dövlətlər:
## Manna, Atropatena və Antik Qafqaz Albaniyası

Azərbaycan ərazisində yaşayan ən qədim tayfalar. Kuti, lullubi, su və turukkilər. Kuti və Lullubi dövlətləri və onların yüksəliş dövrü.

Manna haqqında ilk məlumatlar. Manna dövlətinin yaranması. E.ə. VIII əsrin II yarısında Manna dövlətinin güclənməsi. İranzu. Xarici siyasətin əsas istiqamətləri. Assuriya ilə ittifaq və onun əhəmiyyəti. Urartu ilə münasibətlər. Assuriya ilə ittifaqdan imtina və onun nəticələri. Dövlət quruluşu və idarə sistemi. Mannanın mədəniyyəti. Mannanın zəifləməi və süqutu.

Atropatena dövlətinin yaranması. Atropat. Ərazisi, əhalisi, təsərrüfat həyatı.

Atropatenanın xarici siyasəti. Atropatenanın Selevkilər, Parfiya və Roma ilə qarşılıqlı münasibətləri. Atropatenanın Arminiya ilə münasibətləri. Ermənistan çar hakimliyinini Atropatena hökmdarına tabe edilməsi. Atropatena dövlətinin Azərbaycan tarixində yeri. Mədəniyyət. Zərdüştlük.

Antik Alban dövlətinin yaranması. Antik müəlliflər (Strabon, Plini, Ptolomey) Albaniyanın əhalisi, ərazisi və siyasi sərhədləri haqqında. Əhalinin etnik tərkibi. Təsərrüfat həyatı. Albaniyanın siyasi tarixinin əsas məsələləri: Roma işğalçılarına qarşı mübarizə. Mədəniyyət.

## Mövzu 3. Azərbaycan III-VIII əsrin əvvəllərində

Azərbaycanın erkən orta əsrlər dövrünün əsas mənbələri və tarixşünaslığı. Azərbaycan III-VIII əsrin əvvələrində. Albaniyanın təsərrüfat həyatı. Yeni ictimai – feodal münasibətlərinin təşəkkülü. Feodal və kəndli zümrələrinin tərkibi. Torpaq mülkiyyəti formaları: dastakert və xostak. Albaniyanın ərazisi və inzibati bölgüsü. Albaniyada xristianlığın yayılma mərhələləri. Aquen kilsə yığıncağının qərarları.Alban yazısı və əlifbası problemi.

Atropatena ərazisi Sasani imperiyasının tərkibində. Atropatenada ictimai münasibətlər.

Azərbaycanda Sasanilərə qarşı hərəkat və üsyanlar. Albaniyanın siyasi tarixinin əsas məsələləri. Albaniya Arşakilər sülaləsinin hakimiyyəti dövründə.III Mömin Vaçaqanın Albaniyanın müstəqilliyi uğrunda mübarizəsi. Böyük mərzbanlıq dövrü. Pavlikianlar hərəkatı.Mehranilər sülaləsinin hakimiyyətə gəlməsi. Girdiman knyazlığı. Alban hökmdarı Cavanşirin daxili və xarici siyasəti. III-VIII əsrin əvvəllərində Azərbaycan mədəniyyəti.

## Mövzu 4. Xilafət dövrü Azərbaycan tarixinin başlıca problemləri

Dövrün əsas mənbələri və tarixşünaslığı. Ərəb yürüşləri. Azərbaycanın ərəblər tərəfindən işğal edilməsi. Azərbaycan xilafətin tərkibində. Alban knyazlığının aradan götürülməsi.

Ərəblərin inzibati-idarə sistemi. Əmirliklər. Köçürmə siyasəti: məqsədi və nəticələri. İslam dininin yayılması və əhəmiyyəti. Xilafətin torpaq siyasəti. Torpaq sahibliyinin formaları: divan, mülk, vəqf, icma, iqta və onun növləri. Vergi sistemi, onun inkişaf mərhələləri. Xərac, cizyə, xüms və zəkat.

Xilafət dövründə Azərbaycanın təsərrüfat həyatı və mədəniyyəti.

Azərbaycanda ərəb ağalığına qarşı üsyanların səbəbləri. Xilafətə qarşı xalq azadlıq hərəkatının başlanması. Beyləqanda Müsafinin başçılığı ilə üsyan. “Xürrəmi” istilahı. Xürrəmilik təliminin mahiyyəti. Xürrəmilər hərəkatı. Babəkin başçılığı altında azadlıq müharibəsinin başlanması, gedişi və nəticələri. Azadlıq savaşının məğlub olma səbəbləri və tarixi əhəmiyyəti.

## Mövzu 5. Etnogenezis problemi.Azərbaycan xalqının yaranması

Etnogenezis probleminin nəzəri qoyuluşu:əsas konsepsiyalar. Azərbaycan xalqı anlayışı tarixşünaslıqda. Türklər Cənubi Qafqazın ən qədim sakinləridir. Xalqın yaranışı prosesinin başlıca mərhələləri. Xalqımızın yaranışında iştirak etmiş türk boyları. Bulqarlar.Buntürklər. Qarqarlar.Kəngərlər. Suvarlar və s.

Xalqımızın etno-tarixi yaddaşı. Azərbaycan türk dili.

## Mövzu 6. Azərbaycan IX – XIII əsrin əvvəllərində

**IX əsrdə Azərbaycanda dövlətçiliyin bərpası. Sülalələr, yoxsa dövlətlər?** Bərpa olunmuş Alban çarlığı və ya Şəki hakimliyi Qriqori Hamam,Seveda və Sənəkərimin müstəqillik uğrunda mübarizəsi. Tiflis əmirliyi. Ərəb xilafətinin dağılması. Azərbaycanda siyasi oyanış. Şirvanşahlıq. Azərbaycan Saci və Salarilər sülalələrinin hakimiyyəti dövründə. Azərbaycan torpaqlarının vahid dövlətdə birləşdirilməsi və onun əhəmiyyəti. Azərbaycanda Rəvvadi və Şəddadi sülalələrinin hakimiyyəti. Rusların Azərbaycana qarətçi yürüşləri. Bərdə faciəsi.

**Tariximizdə oğuz-səlcuq dövrü.** Azərbaycan xalqının Cənubi Qafqazda əsas etnosa çevrilməsi. Azərbaycanda Eldənizlər (Atabəylər) sülaləsinin hakimiyyətə gəlməsi. Şəmsəddin Eldəniz. İraq Səlcuq sultanlığının Azərbaycanın idarəsinə keçməsi. Məhəmməd Cahan Pəhləvanın hakimiyyəti dövründə mərkəzi hakimiyyətin gücləndirilməsi. Qızıl Arslanın "sultan" titulunu qazanması. Qonşu dövlətlərlə münasibətlər. Azərbaycanın iqtisadi dirçəlişi. Şirvanşahlıq XII-XIII əsrin əvvəllərində.

**Azərbaycan mədəniyyətinin inkişafı.** Məktəb və mədrəsələr. Elmin inkişafı: Fəridəddin Şirvani, Xətib Təbrizi və b. Ədəbiyyat: Nizami Gəncəvi, Xaqani Şirvani və b. IX-XIII əsrin əvvəllərinə aid bədii əsərlərdə tarixi hadisələrin əks

olunması. Memarlıq: Əcəmi Əbubəkr oğlu, Məsud Davudoğlu. İncəsənət.

## Mövzu 7. Azərbaycan XIII əsrin əvvəlləri – XIV əsrdə

Monqolların Azərbaycana yürüşləri. Təbriz, Gəncə və Dərbəndin qəhrəmancasına müdafiəsi. Dinc əhalinin qırılması. Monqolların Azərbaycanda torpaq, vergi və örüş siyasəti. Hülakü dövlətinin yaranması və Azərbaycanın bu dövlətin mərkəzinə çevrilməsi. Qazan xanın hərbi (əsgəri) iqta haqqında fərmanı. Vergi, məhkəmə, rabitə və s. islahatları və onların nəticələri. Çobani zülmü və Hülakü hökmranlığının sonu.Monqol ağalığının nəticələri dövrün tarixçilərinin əsərlərində.

Toxtamış və Teymurun Azərbaycana yürüşləri. Şirvanda Dərbəndilər sülaləsinin hakimiyyətə gəlməsi. I İbrahimin daxili və xarici siyasəti. Teymuri-Şirvanşah münasibətləri. XIII - XIV əsrlərdə Azərbaycan mədəniyyəti.

## Mövzu 8. Azərbaycan XV əsrdə

**Tarixşünaslığımızda yer almış Qaraqoyunlu və Ağqoyunlu dövlətləri, yoxsa Baharlı və Bayandurlu sülalələri?** Problemin mənbələri və tarixşünaslıq məsələləri. Mərkəzi Van olan Baharlı hakimliyinin meydana çıxması. Teymura qarşı Baharlı – Cəlairi birliyinin yaranması. Teymurun ölümü və Azərbaycanda hakimiyyət uğrunda mübarizənin yeni mərhələsi

**Azərbaycan dövləti Baharlı sülaləsinin hakimiyyəti dövründə.** Qara Yusif. Daxili və xarici siyasəti. Cahanşah. Dövlətimizin ərazisinin genişlənməsi. Şirvanşahlıq, Teymurilər və Osmanlı ilə münasibətlər. Muş döyüşü. Azərbaycanda Baharlı sülaləsinin hakimiyyətinə son qoyulması.

**Azərbaycan dövləti Bayandurlu sülaləsinin hakimiyyəti dövründə.**Diyarbəkirdə Bayandurlu hakimliyi. Azərbaycanda

Bayandurlu sülaləsinin hakimiyyətə gəlməsi. Daxili siyasəti. Sultan Həsən "Qanunnamə"si. Xarici siyasətin başlıca istiqamətləri. Avropa siyasəti. Venetsiya ilə əlaqələr. Osmanlı dövləti ilə müharibələr və onların Avropanın xristian dövlətlərinin xeyrinə olması. Malatya və Otluqbeli döyüşləri. Azərbaycan Sultan Yaqubun dövründə. XV əsrin sonlarında hakimiyyət uğrunda çəkişmələr. Əbhər sazişi ilə Bayandurlu səltənətinin iki yerə parçalanması.

XV əsrdə Azərbaycanda inzibati-idarə sistemi, sosial-iqtisadi həyat. Mədəniyyət.

## Mövzu 9. Azərbaycanda Səfəvilər sülaləsinin hakimiyyətə gəlməsi. Şah I İsmayıl və Şah I Təhmasibin daxili və xarici siyasəti

Səfəvi dövrünün əsas mənbələri və tarixşünaslığı. Səfəviyyə dini ordeni və qızılbaşlıq. Səfəvilərin Ərdəbil hakimliyi. Mərkəzləşmiş Azərbaycan dövlətinin yaranmasının zəruriliyi. Azərbaycan taxtı uğrunda mübarizənin başlanması. Qızılbaşların Şirvana yürüşü. Cabanı döyüşü. Bakının alınması. Bayandurlularla Şərur döyüşü.

**Azərbaycanda Səfəvilər sülaləsinin hakimiyyətə gəlməsi.** Gülüstan qalası yoxsa Azərbaycan taxtı? Qızılbaşların Təbrizə daxil olması. İsmayılın şah elan edilməsi ilə Səfəvilər sülaləsinin Azərbaycanda hakimiyyətə gəıməsi. Şah I İsmayılın daxili və xarici siyasəti. Dövlətimizin imperiyaya çevrilməsi. Səfəvi-Osmanlı müharibələrinin başlanması. Çaldıran döyüşü və onun nəticələri.

Şah I Təhmasibin daxili və xarici siyasəti. 1538-ci ildə Şirvanın tam tabe edilməsi, Şirvanşahların hakimiyyətinə son qoyulması. 1551-ci ildə Şəki hakimliyinin ləğv edilməsi ilə Azərbaycan torpaqlarının vahid dövlətdə birləşdirilməsinin başa çatması. Səfəvi-Osmanlı müharibəsi (1534-1555). Amasya sülhü.

Səfəvilər dövləti I Şah Təhmasibin varislərinin (II İsmayıl, Məhəmməd Xudabəndə) dövründə. Səfəvi-Osmanlı müharibələrinin ikinci mərhələsi. 1590-cı il İstanbul sülhü.

## Mövzu 10. Səfəvi hökmdarı I Şah Abbasın dövründə Azərbaycan dövlətinin yenidən güclənməsi. I Şah Abbas və onun varislərinin daxili və xarici siyasəti.

**Tarixşünaslığımızda Səfəvi dövlətinin etnik mənşəyinin dəyişməsi ilə bağlı yanlış mülahizələrin tənqidi.** Azərbaycan XVI yüzilliyin sonu - XVII yüzillikdə. I Şah Abbas tərəfindən mərkəzi dövlət hakimiyyətinin gücləndirilməsi tədbirləri. Şah Abbasın islahatları. Səfəvi ordusunun formalaşdırılması. Xarici siyasəti. Azərbaycan torpaqlarının Osmanlıdan geri alınması. 1639-cu il Qəsri-Şirin sülhü.

Azərbaycan XVII əsrin II yarısında.

**Səfəvilərin bütün hakimiyyəti dövründə dövlətimizin öz etnik mənşəyini qoruyub-saxlaması.** Səfəvilərin dövlət quruluşu: Qızılbaş türk soylarının və Azərbaycan türk dilinin dövlət idarəetmə sistemində yeri.Səfəvi dövlətinin inzibati ərazi quruluşu: bəylərbəyliklər və valiliklər. Səfəvi ordusu: Qızılbaş qoşununun öz üstün mövqeyini qoruyub saxlaması. Yeni qoşun növlərinin yaradılması: qulamlar, tüfəngçilər və topçular.

Kənd təsərrüfatı. Torpaq sahibliyi formaları. Şərti torpaq sahibliyi olan tiyulun meydana çıxması. Sənətkarlıq. Şəhərlər. Daxili və xarici ticarət.

Mədəniyyət: Azərbaycan türk dilinin inkişafı və dövlət dili statusu qazanması. Şah İsmayıl Xətai. Maarif və məktəb. Mədrəsələr. Elm: təbabət, astronomiya, riyaziyyat, fəlsəfə. Tarix elmi: Həsən bəy Rumlu, İsgəndər bəy Münşi və b. Ədəbiyyatın inkişafı. Xətai, Füzuli, Həbibi. Aşıq sənəti. Dastan ədəbiyyatı. İncəsənət. Təbriz minüatür məktəbi. Memarlıq.

## Mövzu 11. Azərbaycan XVII əsrin son rübü – XVIII əsrin birinci yarısında

Dövlətimizin zəifləməsi və onun əsas səbəbləri. I Pyotrun Azərbaycana işğalçılıq yürüşü. “Peterburq müqaviləsi”. Cənubi Qafqaz uğrunda Rusiya-Osmanlı qarşıdurması. 1724-cü il İstanbul müqaviləsi. Azərbaycanda rus və Osmanlı idarəçiliyi. Hacı Davudun başçılığı ilə Şirvanın yarımmüstəqil xanlığa çevrilməsi.

**Şərqin yeni imperiyası olan Əfşarlar dövlətinin qurulması.** Dövrün tarixi hadisələri mənbələrdə. Nadir xanın Azərbaycan torpaqlarını geri almaq uğrunda mübarizəsi. Kirmanşah, Rəşt, Bağdad və Gəncə müqavilələrinin bağlanması nəticəsində rusların Xəzərsahili vilayətlərdən, osmanlıların qalan Azərbaycan torpaqlarından çıxarılması. Nadirin şah “seçki”si. Əfşarlar dövlətinin qurulması. Nadir şahın daxili siyasəti.Dini islahat cəhdləri. Nadir şahın xarici siyasəti. Əfşar-Osmanlı münasibətləri. Azərbaycanda Nadir şahın hakimiyyətinə qarşı üsyanlar

## Mövzu 12. Azərbaycan xanlıqları

Dövrün mənbələri və tarixşünaslığı.Xanlıqların yaranması: Urmiya, Xoy, Şəki, Şamaxı, Quba, Qarabağ və başqaları. Xanlıqlar dövründə camaatlıq və sultanlıq idarəçilik sistemləri: Car-Balakən camaatlığı,İlisu, Qəbələ,Borçalı sultanlıqları. Xanlıqların daxili siyasət məsələləri və sosial-iqtisadi həyatı. İnzibati idarəetmə sistemi. Azərbaycan torpaqlarını vahid dövlətdə birləşdirmək cəhdləri: Urmiyalı Fətəli xan, Şəkili Hacı Çələbi xan, Qubalı Fətəli xanın birləşdirmə siyasəti və onun nəticələri. Xanlıqların xarici siyasətinin əsas istiqamətləri. Xanlıqlararası münasibətlər. Xanlıqların Osmanlı imperiyası, Rusiya və Kartli-Kaxetiya ilə münasibətləri. XVIII əsrin

sonlarında Azərbaycanın şimal torpaqlarına Ağa Məhəmməd Qacarın yürüşləri və onun nəticələri. V.Zubovun başçılığı ilə rus qoşunlarının Azərbaycana işğalçı yürüşü.

XVIII əsr Azərbaycan mədəniyyəti. Maarif. Elm. Ədəbiyyat. İncəsənət.

## Mövzu 13. Şimali Azərbaycanın Rusiya tərəfindən işğalı. Şimali Azərbaycanda rus ağalığı. XIX əsrin 30-cu illərində rus müstəmləkə əsarətinə qarşı üsyanlar

**Rusiya-Azərbaycan müharibəsi.(1801-1804).**Dövrün mənbələri və tarixşünaslığı. Şimali Azərbaycanın Rusiya tərəfindən işğal olunmasının birinci mərhələsi. Rusiya-Azərbaycan müharibəsi. Qazax, Şəmşəddil və Borçalı sultanlıqlarının işğalı. Car-Balakənin və Gəncə xanlığının işğal olunması. Cavad xan. 1805-ci il Kürəkçay müqaviləsi: Qarabağ, Şəki və Şamaxı xanlıqlarının tabe edilməsi.

1804-1813-cü illər Rusiya-Qacar savaşı.Abbas Mirzə Qacar. Gülüstan müqaviləsi. 1826-1828-ci illər Rusiya-Qacar savaşı. Naxçıvan və İrəvan xanlıqlarının rus qoşunları tərəfindən tutulması. Türkmənçay müqaviləsi.

Şimali Azərbaycanda rus ağalığı. Qarabağ, Şəki və Şirvan xanlıqlarının ləğv edilməsi. Hərbi işğal rejiminin qurulması. Komendant üsul-idarəsi. Çarizmin köçürmə siyasəti. Rusların və almanların köçürülməsi. Qacar və Osmanlı dövlətlərindən ermənilərin Azərbaycan torpaqlarına kütləvi surətdə köçürülməsi. Çarizmin dini ayrı-seçkilik siyasəti. Müstəmləkə əsarətinə qarşı azadlıq mübarizəsi. 1830-cu il Car-Balakən, 1831-ci il Lənkəran, 1837-ci il Quba və 1838-ci il Şəki üsyanları. Üsyanların əhəmiyyəti və nəticələri.

## Mövzu 14. XIX əsrin 40-70-ci illərində Şimali Azərbaycanda həyata keçirilən islahatlar. XIX əsrin ikinci yarısında mədəni inkişaf

**Şimali Azərbaycanda 40-cı illərin islahatları.** Cənubi Qafqazda inzibati-məhkəmə sistemində islahat keçirilməsi haqqında 10 aprel 1840-cı il qanunu. Komendant üsul-idarəsinin ləğvi. Şimali Azərbaycan torpaqlarının Xəzər vilayəti və Gürcüstan-İmeretiya quberniyasına daxil edilməsi. 1844-cü ildə Qafqaz canişinliyinin yaradılması. 1846-cı ildə yeni inzibati bölgünün həyata keçirilməsi. 1849-cu ildə İrəvan quberniyasının yaradılması.

40-cı illərin əvvəllərində Azərbaycan bəy və ağalarının torpaqlarının müsadirəsi tədbirləri və onun nəticələri. Bəy və ağaların torpaq hüqüqları haqqında 1846-cı il Ali reskripti (fərmanı) ilə Azərbaycan zadəganlarının mülkiyyət hüquqlarının hökumət tərəfindən rəsmən tanınması. 1847-ci il Kəndli Əsasnamələri: Azərbaycan zadəganları ilə sahibkar kəndliləri arasında asılılıq münasibətlərinin tənzimlənməsi.

**Azərbaycanda kapitalizmin genezisi və inkişafı problemi.** XIX əsrin 60-70-ci illərində burjua islahatları. 14 may 1870-ci il kəndli islahatı. Məhkəmə və şəhər islahatı. Bakıda və Yelizavetpolda (Gəncədə) yerli özünüidarə orqanlarının yaradılması. Yeni inzibati dəyişikliklər.

XIX əsrin II yarısında iqtisadi inkişaf. Neft sənayesi: İltizam sisteminin ləğvi. Digər sənaye sahələri. Əlvan metalurgiyanın inkişafı. “Simens qardaşları” şirkəti. Nəqliyyat. Kənd təsərrüfatında kapitalist münasibətlərinin inkişafı. Ticarət.

**Azərbaycanın dövlətçilik tarixində azadlıq mübarizəsinin yeri. Milli azadlıq hərəkatının oyanış dövrü.(1875-1904)** Milli kimlik məsələsinin gündəmə gətirilməsi. Azərbaycan milləti anlayışı. Azərbaycan milli burjuaziyasının formalaşması: H.Z.Tağıyev, M.Nağıyev, Ş.Əsədullayev və b. Azərbaycan millətinin təşəkkülü.

**Mədəniyyət.** Maarifin inkişafı. Yeni tipli məktəblərin yaranması. Anadilli məktəblərin yaranması uğrunda mübarizə: Üsuli-cədid məktəbi. Elm: Tarixi əsərlər.Möhsün bəy Xanlarov, Mirzə Kazımbəy. Ədəbiyyat: M.F.Axundov, Q.B.Zakir, S.Ə.Şirvani.XIX əsrə aid bədii əsərlərdə tariximizin əks olunması. Milli mətbuatın yaranması və inkişafı: H.B.Zərdabi. "Əkinçi" qəzeti. Milli ziyalılar. Milli teatrın yaradılması. Memarlıq. Təsviri incəsənət və musiqi.

## Mövzu 15. Azərbaycan XX əsrin ilk onilliklərində

XX əsrin əvvəllərində iqtisadi inkişaf. Neft sənayesi. Digər sənaye sahələri. Nəqliyyat. Kənd təsərrüfatı. Ticarət. Köçürmə siyasəti. 1912-1913-cü illərin aqrar qanunları. 1904-cü il dekabr ümumi tətili. «Mazut konstitusiyası». **Milli-azadlıq hərəkatının yeni mərhələsinin başlanması (1905-1917)**. Azərbaycan 1905-1907-ci illər inqilabı dövründə. Çarizmin Azərbaycanda milli qırğın siyasəti. Azərbaycanlı deputatların dövlət dumalarında fəaliyyəti. XX əsrin əvvəllərində Azərbaycanda siyasi təşkilatların və partiyaların yaranması. «Difai», «Müdafiə» və «Müsavat» partiyaları.

Azərbaycan Birinci Dünya müharibəsində iştirak edən dövlətlərin planlarında. Azərbaycanlı hərbçilər müharibə cəbhələrində. Müharibənin Azərbaycanın iqtisadiyyatına və əhalinin güzəranına təsiri.

Mədəniyyət. İlk milli opera. İlk Azərbaycan filmi. Ədəbiyyat. Mətbuat.

## Mövzu 16. Azərbaycan Xalq Cümhuriyyəti

**Milli azadlıq hərəkatının üçüncü mərhələsi.(1917-ci il fevral-1918-ci il 28 may).** Azərbaycan Fevral inqilabından sonrakı dövrdə. Xüsusi Zaqafqaziya Komitəsi. İctimai Təşkilatların İcraiyyə Komitəsinin fəaliyyəti. Zaqafqaziya Komissarlığı və Seymi. Bakı Sovetində rəhbərliyin daşnak-

bolşevik güruhunun əlinə keçməsi və onun azərbaycanlıları məhv etmək siyasəti. Azərbaycan türklərinə qarşı 1918-ci il mart soyqırımı.

28 may 1918-ci il «İstiqlaliyyət bəyannaməsi» və Azərbaycan dövlətçiliyinin bərpası. Bakıda Sovet hakimiyyətinin süqutu. «Sentrokaspi diktaturası». Bakının azad edilməsi. Yeni dövlət quruculuğu. Azərbaycan Parlamentinin açılışı və fəaliyyəti.

Azərbaycan Cümhuriyyəti hökumətinin daxili siyasəti:milli dövlət quruculuğu. Sosial-iqtisadi və mədəniyyət sahəsində tədbirlər. Bakı Dövlət Universitetinin açılması. Ordu quruculuğu. Ölkə daxlində ermənilərin fitnəkarlığına son qoyulması.

Azərbaycan Cümhuriyyətinin xarici siyasəti: Osmanlı dövləti ilə Batum müqaviləsinin bağlanması və onun əhəmiyyəti. Gürcüstan Respublikası ilə hərbi ittifaq yaradılması. Azərbaycan Cümhuriyyətinin Paris sülh konfransında tanınması. Bolşevik Rusiyasının hərbi müdaxiləsi, Azərbaycan Cümhuriyyətinin süquta uğraması. Azərbaycan Cümhuriyyətinin tariximizdə yeri.

## Mövzu 17. Şimali Azərbaycanda II Respublikanın-Azərbaycan SSR-nin yaradılması.

**Milli azadlıq hərəkatının üçüncü mərhələsi(1920-ci il 28 aprel-1991-ci il 18 oktyabr).**

**Şimali Azərbaycanda sovet rejiminin qurulması.** Sovet dövrünün mənbələri və tarixşünaslığı.Azərbaycan SSR-nin yaradılması. Sovet işğal rejiminə qarşı müqavimət hərəkatı və üsyanlar. Azərbaycanda sovet idarə orqanlarının yaradılması. Sovet rejiminin inqilabi tədbirləri. Kütləvi repressiyalar. Azərbaycanın formal müstəqilliyinin ləğvi. Azərbaycan SSR-nin ZSFSR-ə və SSR-nin tərkibinə qatılması.

**Yeni iqtisadi siyasətin mahiyyəti.** Azərbaycan SSR-də yeni iqtisadi siyasətin həyata keçirilməsi və onun xüsusiyyətləri.

**DQMV və Naxçıvan MSSR-in təşkili**. Azərbaycanda sovet milli siyasəti və onun mahiyyəti. Azərbaycanın ərazi

bütövlüyünün pozulması. Borçalı və Qarayazı torpaqlarının Gürcüstana güzəştə gedilməsi.  Zəngəzurun itirilməsi.DQMV-nin və Naxçıvan MSSR-in yaradılması. Moskva və Qars müqavilələrində Naxçıvanın status məsələsi.Naxçıvanın Azərbaycanın tərkibində qalmasında Türkiyənin misilsiz rolu.Mehri rayonunun Ermənistana verilməsi Azərbaycanın Naxçıvanla əlaqəsinin kəsilməsi.

## Mövzu 18. Azərbaycan SSR-də sosialistcəsinə dəyişikliklərin həyata keçirilməsi

**Sənayeləşdirmə xətti.** Sənayeləşdirmə xəttinin həyata keçirilməsi və onun nəticələri.

**Kollektivləşdirmə xətti**. Zorakı kollektivləşdirmə siyasətinin həyata keçirilməsi və ona qarşı mübarizə.Kolxoz quruculuğunun nöqsan və eybəcərlikləri.

İnzibati amirlik sistemi və avtoritar idarəçiliyin bərqərar edilməsi. Azərbaycanda kütləvi repressiyaların həyata keçirilməsi və onun ağır nəticələri.

**“Mədəni inqilab”.** XX əsrin 20-30-cu illərində sovet Azərbaycanında mədəni quruculuq tədbirləri: yeni sovet təhsil sisteminin yaradılması, Əlifba islahatları. Elm, incəsənət və memarlıq. Ədəbiyyat. Dinimizin sıxışdırılması. Mədəniyyət xadimlərinə kütləvi divan tutulması.

Sosializm quruculuğunun başa çatdırılması.1936-cı il SSRİ,1937-ci il Azərbaycan SSR-nin konstitusiyaları. Xalqımızın adının və dilinini dəyişdirilməsi.

## Mövzu 19. Azərbaycan İkinci Dünya müharibəsi dövründə

Azərbaycan SSR müharibə edən dövlətlərin planlarında. Azərbaycan iqtisadiyyatının müharibənin tələbatına uyğun olaraq

yenidən qurulması. Arxa cəbhə. Bakı Sovet ordusunun yanacaq bazası və cəbbəxanası kimi. Bakı neftinin faşizm üzərindəki qələbədə rolu və bu rolun Sovet rəhbərliyi tərəfindən lazımı şəkildə qiymətləndirilməməsi.

Azərbaycanlıların Mərkəzi Asiya və Qazaxıstana köçürülmək planı və bu planın baş tutmamasının səbəbləri.

Azərbaycanlıların döyüş cəbhələrində, partizan və Avropada antifaşist hərəkatında iştirakı. Milli legionların təşkili. Müharibə illərində Azərbaycan mədəniyyəti.

### Mövzu 20. Cənubi Azərbaycan 1828- XXI əsrin ilk onilliklərində

**Cənubi Azərbaycanda azadlıq hərəkatı. Səttərxan.** Cənubi Azərbaycan 1828-XXI əsrin əvvəllərində sosial-iqtisadi vəziyyət. Cənubi Azərbaycan Qacar dövlətinin tərkibində. Babilər hərəkatı**.** Kəsbkarlıq.Xarici kapitalın ölkəyə soxulması.İngilis inhisarına qarşı Tənbəki üsyanı.Taxıl möhtəkirliyinə qarşı Zeynəp paşa üsyanı. Cənubi Azərbaycan 1905-1911-ci illər İran inqilabının mərkəzi kimi. Səttarxanın başçılığı ilə azadlıq hərəkatı və onun əhəmiyyəti.

**Cənubi Azərbaycanda Ş.M.Xiyabaninin başçılığı altında milli azadlıq hərəkatı.** Cənubi Azərbaycan 1917-1918-ci illərdə. Xoy, Səlmas, Urmiyada ermənilər tərəfindən azərbaycanlılara qarşı törədilən qırğınlar. Osmanlı dövlətinin köməyə gəlməsi.

**Milli hökümətin fəaliyyəti.** 1920-ci il Təbriz üsyanı. Milli hökumətin təşkili və fəaliyyəti. Hərəkatın yatırılması və tarixi əhəmiyyəti. Cənubi Azərbaycan XX əsrin 20-30-cu illərində.Rza şahın farslaşdırma siyasəti və onun nəticələri.

**Cənubi Azərbaycan 1941-1946-cı illərdə.**Cənubi Azərbaycan müharibə edən dövlətlərin planlarında. SSRİ və onun müttəfiqlərinin İrana müdaxiləsi.

Cənubi Azərbaycanda demokratik hərəkatın başlanması. “21 Azər” hərəkatının qələbəsi. S.C.Pişəvərinin başçılığı ilə milli hökumətin qurulması və fəaliyyəti. “Dil haqqında” qanunun

verilməsi. Torpaq islahatı. Əmək haqqında qanun. Milli hökumətin mədəniyyət sahəsindəki tədbirləri. Təbriz Universitetinin açılması. Milli Teatr və Filarmoniya. Şimali Azərbaycandan ziyalıların köməyi. SSRİ, ABŞ və İngiltərənin "Cənubi Azərbaycan" məsələsindəki mövqeyi. Sovet qoşunlarının Cənubi Azərbaycandan çıxarılması. Milli hökumətin süqutu. Hərəkatın tarixi əhəmiyyəti.

**Cənubi Azərbaycan II dünya müharibəsindən sonrakı dövrdə.** 50-60-cı illərdə həyata keçirilən islahatların Cənubi Azərbaycana təsiri.Şah əleyhinə çıxışların başlanması.1978-ci il Təbrizdə "29 Bəhmən" üsyanı.Cənubi Azərbaycan İran inqilabı və ondan sonrakı dövrdə.

## Mövzu 21. Azərbaycan SSR 1945-1960-cı illərdə

Dinc quruculuğa keçid. Yeni sənaye sahələrinin və mərkəzlərinin yaranması. Kənd təsərrüfatında vəziyyət. Siyasi sistemin təkmilləşdirilməsi cəhdləri. 1948-1953-cü illərdə Azərbaycan əhalisinin Ermənistan adlanan tarixi torpaqlarımızdan kütləvi surətdə deportasiyası. XX əsrin 50-60-cı illərində respublikanın ictimai-siyasi və iqtisadi həyatı. Mədəniyyət.

## Mövzu 22. Azərbaycan SSR XX əsrin 70-80-ci illərində

**Respublikamızda milli dirçəliş dövrünün başlanması.** Respublikada Heydər Əliyevin hakimiyyətə gəlməsi. İqtisadiyyata rəhbərliyin gücləndirilməsi. Azərbaycanda sənaye və kənd təsərrüfatının inkişafı. Yeni sənaye müəssisələrinin və sosial-məişət obyektlərinin tikilməsi. Kadr hazırlığı. Elmi-texniki tərəqqi. Əhalinin sosial vəziyyəti. Mədəniyyət.

**Yenidənqurma siyasəti və Azərbaycan.** Dağlıq Qarabağ probleminin ortaya gətirilməsi. Azərbaycanda xalq hərəkatının başlanması. Azərbaycan  Xalq Cəbhəsi.

## Mövzu 23. Müstəqil Azərbaycan Respublikası (1991-2010-cu illər)

**Milli azadlıq hərəkatının qələbəsi. Dövlət müstəqilliyimizin bərpası.** Müstəqillik dövrünün mənbələri və tarixşünaslığı. SSRİ-nin dağılması ərəfəsində Azərbaycanda ictimai-siyasi vəziyyət: 1990-cı ildə Bakıda Qanlı yanvar faciəsi və onun hüquqi-siyasi qiyməti.  Milli azadlıq hərəkatının genişlənməsi. Azərbaycanın dövlət müstəqilliyinin bərpa edilməsi (18 oktyabr 1991).

**Milli dövlət quruculuğunun başlanması**. Bazar iqtisadiyyatına keçid və dünya iqtisadiyyatına inteqrasiya. Azərbaycanın BMT-yə və digər beynəlxalq təşkilatlara qəbul olunması.

Ermənistan-Azərbaycan müharibəsi. Xocalı soyqırımı XX yüzilliyin ən dəhşətli faciəsidir.

**1993-cü ildə Heydər Əliyevin yenidən hakimiyyətə gəlməsi ilə Azərbaycanın siyasi həyatında yeni mərhələnin başlanması.** H.Əliyevin başçılığı ilə Azərbaycanın dövlət müstəqilliyinin qorunub saxlanılması uğrundu mübarizə. Müstəqil Azərbaycanın 1993-2003-cü illərdə sosial-iqtisadi və siyasi vəziyyəti. Əsrin müqaviləsi və neft strategiyası. Yeni parlamentin formalaşması. 1995-ci il Azərbaycan Konstitusiyası. İslahatların keçirilməsi. İnvestisiya siyasəti. Özəlləşdirmə və sahibkarlığın inkişafı. Aqrar və torpaq islahatları. Əhalinin rifahı və sosial müdafiəsi. Azərbaycan diasporu. Azərbaycan respublikasının xarici siyasətinin əsas istiqamətləri.

**Yeni minilliyin əvvəlləri.Azərbaycan Respublikasının Cənubi Qafqazın lider dövlətinə çevrilməsi.** 2003-cü, 2008-ci 2013-cü və 2018-ci illərdə İlham Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçilməsi. Daxili

siyasət.Azərbaycanda hüquqi dövlət və vətəndaş cəmiyyəti. Respublikamızın siyasi və sosial-iqtisadi inkişafı. Regionların sosial-iqtisadi inkişaf proqramlarının həyata keçirilməsi. TAP-TANAP layihəsi üzrə Şahdəniz-2 və Avropaya yeni qaz dəhlizinin açılması. İqtisadiyyatın qeyri-neft sektorlarının inkişaf etdirilməsi. Xarici siyasətin əsas istiqamətləri.Azərbaycanın beynəlxalq təhlükəsizliyinin təmin edilməsi.”Dağlıq Qarabağ “problemi. Aprel döyüşləri.

Müstəqillik dövründə respublikamızda mədəniyyətin inkişafı

## ƏDƏBİYYAT

1. Azərbaycan tarixi (ən qədim zamanlardan – XXI əsrin ilk onilliklərinədək). M.Abdullayevin elmi redaktorluğu ilə. Bakı: Bakı Universiteti, 2016, 412 s.
2. Azərbaycan tarixi. Uzaq keçmişdən 1870-ci illərə qədər. S.S.Əliyarlının redaktəsi ilə. Bakı: Çıraq, 2009, 872 s.
3. Azərbaycan tarixi üzrə qaynaqlar. Seminar və təcrübə məşğələləri üçün müntəxabat. S.S.Əliyarlının redaktəsi ilə. Bakı: Çıraq, 2007, 400 s.
4. Azərbaycan tarixi. Ali məktəblər üçün mühazirələr kursu. II hissə (XIX-XXI əsrin əvvəli) A.Ə.Rzayevin ümumi redaktəsi ilə. Bakı: Bakı Universiteti nəşriyyatı, 2010, 544s.
5. XX əsr Azərbaycan tarixi, II cild. Ali məktəblər üçün dərslik, T.T.Vəliyevin ümumi redaktəsi ilə. Bakı: Təhsil, 2009, 560 s.
6. Abdullayev M.Q. Xanlıqlar və rus müstəmləkəçiliyi dövründə Şimali Azərbaycanda aqrar münasibətlər (XIX əsrin 40-cı illərinə qədər). Dərs Vəsaiti, Bakı: Adiloğlu, 2005, 232 s.
7. Aşurbəyli S.B. Şirvanşahlar dövləti. Bakı: Avrasiya press, 2006, 416 s.
8. Azərbaycan xanlıqlarının Osmanlı dövləti ilə siyasi əlaqələri (XVIII əsrin II yarsı). Bakı: Nurlan, 2002, 131 s.

9. Bayramlı Z., Şabiyev B. Azərbaycan Səfəvi dövləti (XVI-XVII əsrlər) Bakı, Avropa nəşriyyatı, 2016, 344 s.
10. Bayramlı Z. Azərbaycan Səfəvi dövlətinin quruluşu və idarə olunmasında türk qızılbaş əyanlarının rolu. Bakı: Avropa, 2015, 348 s.
11. Boran Əziz. Xocalı soyqırımı: səbəbləri, həyata keçirilmə üsulları və nəticələri. Bakı: Azərnəşr, 2008, 224 s.
12. Bünyadov Z.M. Azərbaycan VII-IX əsrlərdə. Bakı: Azərnəşr, 1989, 336 s.
13. Bünyadov Z.M. Azərbaycan Atabəyləri dövləti (1136-1225-ci illər) Bakı: Şərq-Qərb, 2007, 312 s.
14. Cəfərov C.Azərbaycan kəndi kollektivləşdirmə illərində (1920-ci illərin sonu-30 cu illər). Bakı: Elm, 2008, 300 s.
15. Dəlili H.Ə. Azərbaycanın cənub xanlıqları. Bakı: 1979, 142 s.
16. Əfəndiyev O. Azərbaycan Səfəvi dövləti. Bakı: Şərq-Qərb, 2007, 344 s.
17. Əhmədov E. Ermənistanın Azərbaycan təcavüzü: təhlili xronika (1987-2011). Bakı: Ensiklopedik nəşr, 2012, 912 s.
18. Əliyarlı S.Tariximiz açıqlanmamış mövzuları ilə. Bakı: Mürtəcim, 2012, 560 s.
19. Əliyev Heydər. Müstəqillik yolu. Bakı: 1997, 136 s.
20. Əliyev Heydər Azərbaycanda iqtisadiyyatın və sosial sahənin yüksəlişi özəl sektorun inkişafından asılıdır: Görüşlər, fərmanlar, əsasnamələr, qaydalar, proqramlar, tədbirlər / Tərt. T.Əhmədov. Bakı: Nurlar, 2002, 112 s.
21. Əliyev Heydər. Müstəqilliyimiz əbədidir: qeydlər: Qırx altıncı kitab. Bakı: Azərnəşr, 2013, 496 s.
22. Əliyev İlham. Inkişaf – məqsədimizdir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. Bakı: Azərnəşr, 2008, 325 s.
23. Əliyev İlham. İnkişaf – məqsədimizdir. Bakı: Azərnəşr, 2012, 408 s..
24. Fazili A. Atropatena (e.ə. IV-VII əsrlər). Bakı: Elm, 1992, 216 s.

25. Fərzəlibəyli Ş. Azərbaycan və Osmanlı imperiyası (XV-XVI əsrlər). Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1995, 200 s.
26. Həsənov Ə. Azərbaycanın xarici siyasəti: Avropa dövlətləri və ABŞ (1991-1996). Bakı: 1998, 315 s.
27. İbişov F. Azərbaycan kəndində sosial-siyasi proseslər (1920-1930). Bakı: 1996, 168 s.
28. İsgəndərli A. Azərbaycan həqiqətləri (1917-1920). Bakı: Elm və Təhsil, 2012, 228 s.
29. İsmayılova S. Azərbaycan tarixinin öyrənilməsində bədii ədəbiyyat mənbə kimi (XIX əsrin II yarısı Şimali Azərbaycan bədii ədaəbiyyatı üzrə). Bakı: Avropa, 2016, 170 s.
30. Qasımov X. Orta əsrlərdə Azərbaycan mədəniyyəti. Bakı: Azpoliqraf, 2008, 448 s.
31. Qaşqay S. Manna dövləti. Bakı: Azərnəşr, 1993, 107 s.
32. Летифова Э. Илисуйское султанство. Баку: Шарг-Гарб, 2010, 400 с.
33. Mahmudov Y.M. Azərbaycan diplomatiyası. Ağqoyunlu və Səfəvi dövlətlərinin Avropa ölkələri ilə əlaqələri (XV-XVII yüzilliklər). Bakı: Təhsil, 2006, 416 s.
34. Mehdiyev Ə. Əsrin müqaviləsi, Azərbaycan neft strategiyasının təməl daşı. Bakı: Turxan NPB, 2014, 248 s.
35. Məmmədov Ə. Müstəqil Azərbaycan dövlətinin bərpası və möhkəmləndirilməsi uğrunda mübarizə (80-ci illərin sonu-1997 ci il). Bakı: Elm, 1999, 360 s.
36. Məmmədova F.M. Qafqaz Albaniyasının siyasi tarixi və tarixi coğrafiyası. Bakı: 1993, 74 s.
37. Moisey Kalankatuklu. Albaniya tarixi. Mxitar Qoş. Albaniya salnaməsi. Bakı: Avrasiya Press, 2006, 296 s.
38. Məmmədova A.Ə.Car-Balakən camaatlığı (XVII əsrin sonu-XIX əsrin 30-cu illəri). Bakı: 2009, 256 s.
39. Piriyev V. Azərbaycan XIII-XIV əsrlərdə. Bakı: Nurlan, 2003, 458 s.
40. Şabiyev.B.Ş. Azərbaycan Səfəvi Dövlətinin İrəvan vilayəti. Bakı: 2018, (təkmilləşdirilmiş ikinci nəşr), 445 s.

41. Şükürov K.Azərbaycan əhalisi:Öyrənilməsi tarixi və qaynaqları (qədim zamanlardan müasir dövrədək). Bakı: Elm, 2004, 974 s.
42. Zeynalov İ.X.Azərbaycanın iqtisadi və sosial inkişafı (70-80-ci illər). Bakı: Bakı Universiteti nəşriyyatı, 1996, 314 s.
43. Zeynalov İ.X. Totalitar sovet cəmiyyəti:Tarixin ibrət dərsləri(Azərbaycan SSR XX əsrin 20-50-ci illərində). Bakı: Ləman, 2017,720 s.
44. Шабиев Б. Внешняя политика Узун Хасана (Взаимо-отношения с Османской империей). Баку: 2012, 253 с.

## Əsas internet resursları

45. http://kitab.az
46. http://www.anl.az
47. http://www.history.az
48. http://www.kitabklubu.org
49. http://www.preslib.az

Çapa imzalanmışdır: 22.01.2020
Kağız formatı: 60x84  1/16  Həcmi: 1.5 ç.v.

---

“Ləman Nəşriyyat Poliqrafiya” MMC-də çap olunmuşdur